Xalq qəzeti.- 2021.- 2 iyul.- S.10.



**Avro – 2020-nin yarımfinal matçlarına İspaniya və İsveçrə yığma fubol komandalarının qarşılaşması ilə Sankt – Peterburqdakı “Qazprom arena”da start veriləcək.**




# İsveçrə ssenarisi yeni tarixə çevrilə biləcəkmi?

“Bax bu matçdır! Bax bu əsl futbol axşamıdır!”, – deyə 11 metrlik zərbələr seriyasında Kilian Mbappeni məyus etməklə Dünya çempionu Fransanı turnirdən kənarda qoyan Yan Sommer bildirir. Fransa üzərində qələbə İsveçrə futbolunun bütün tarixi ərzində ən böyük nailiyyəti oldu. Çünki milli komanda 1938-ci il Dünya çempionatından sonra ilk dəfədir ki, belə möhtəşəm turnirdə 4/1 finala vəsiqə qazanır. Baş məşqçi Vladimir Petkoviç komandasının İtaliya millisinə böyük hesabla məğlubiyyətdən sonra azarkeşlər və bütün ölkə qarşısında üzr istədi və bundan bir neçə gün sonra İsveçrənin futbol tarixinə öz adını yazdı. İndi isə onun yetirmələri bu tarixi davam etdirmək üçün İspaniya millisi ilə qarşılaşmaya çıxacaqlar.

İspaniya isə elə qrup mərhələsində də, 8/1 finalda da sözün əsl mənasında odla oynadı. Əvvəlcə iki heç-heçə ilə turnir vəziyyətini gərginləşdirən Luis Enrikenin yetirmələri Slovakiya ilə oyunda möhtəşəm oyun nümayiş etdirib 5 – 0 hesablı qələbə ilə tarixə Avropa çempionatının final mərhələsində ən çox qol vuran komandası kimi düşməklə bərabər, həm də pley-offa vəsiqəni təmin etdilər. Sonra isə Xorvatiya ilə qarşılaşmada 3:1 hesabı ilə irəlidə olduqları bir vaxtda, matçın sonunda Zlatko Petkoviçin yetirmələrinə hesabı bərabərləşdirməyə imkan verməklə bütün azarkeşlərinə az qala şok yaşatdılar. Əlavə vaxtda isə “Furiya roxa” İspaniyanın nahaqdan Avropa futbolunun mərkəzlərindən biri olmadığını sübut etdi və yenidən hesabda irəli



çıxaraq 4/1 finala yüksəldi.

Üçqat Avropa çempionu İspaniya millisinin Avroda belə sürət götürməsi ilk dəfə deyil. Bununla belə, bir faktı unutmaq olmaz ki, ispanlar böyük turnirdə, 2010-cu il Dünya çempionatının qrup mərhələsində isveçrəlilərlə axırıncı görüşdə 0 – 1 hesabı ilə məğlub olublar. Amma bu isveçrəlilərin İspaniya millisi ilə 22 qarşılaşmada qazandığı yeganə qələbədir. Qalan görüşlərdə 5 heç-heçə və 16 məğlubiyyət qeydə alınıb. Komandaların son iki qarşılaşması UEFA-nın millətlər liqası çərçivəsində keçirilib və bu görüşlərdən biri minimal hesabla İspanların xeyrinə, ikincisi isə 1 – 1 hesabı ilə başa çatıb. Komandanın kapitanı Qranit Caka son müsahibəsində çox iddialı danışaraq deyib: “Biz onları yaxşı tanıyırıq, çünki bir neçə ay əvvəl görüşmüşük. Bizə Fransa ilə nümayiş etdirdiyimiz xarakteri, həmin döyüş ruhunu nümayiş etdirmək lazımdır”. Forvard fikrini davam etdirərək deyib: “İsveçrənin bütün sakinləri xoşbəxt olmalıdırlar, onlar bizimlə fəxr etməlidirlər. Biz fransızlara qalib gəlməklə tarixə düşdük”.

Həqiqətən belədir, çünki İsveçrənin yığma futbol komandası 83 ildə heç bir turnirdə bir dəfə də olsun Fransa millisinə qalib gələ bilməyib. Buxarestdəki qələbə həqiqətən tarixi bir keçid mərhələsi oldu. Petkoviçin qəhrəmanları Fransa ilə oyuna hazırlanmış planı ideal şəkildə yerinə yetirə bildilər. Əgər isveçrəlilər həqiqətən Fransa millisi ilə qarşılaşmadakı oyunu İspaniya millisi ilə matçda da nümayiş etdirə bilsələr, Luis Enrikenin drujinasına bu oyun heç də gözəl anlar yaşatmayacaq.

Amma “Furiya roxa” belə qarşılaşmalardan birində – Xorvatiya millisi ilə matçda özünü sınadı və qalib ayrıldı. “Mən Xorvatiya ilə oyunlar kimi matçlara hazıram, deyə İspaniya millisini baş məşqçisi Luis Enrike deyir. – Ancaq azarkeşlərin və ya mənim ailəmin belə deyəcəyinə əmin deyiləm. Biz müdafiədən oynamağa və topu irəli atmağa hazırlaşmırıq, hətta ağlasığmaz rəqiblə qarşılaşsaq belə. Müxbir Qrem Xanter bir qədər ehtiyatla danışır: “İspanlar son iki oyunda on top vursalar da, heç kim isveçrəlilərə yuxarıdan aşağı baxmaq fikrində deyil. Onlar ispanlar üçün narahat rəqibdirlər. Düşünürəm hər şey 11 metrlik zərbələrdə müəyyənləşəcək”.

Buna baxmayaraq, İspaniya millisinin qapıçısı Unay Simon çox qətiyyətli və inamlı danışıb: “Dördə bir finalda hər şey rəqibdən deyil, bizdən asılı olacaq. Kiminlə oynamağımız vacib deyil – Fransa olsun, İsveçrə olsun və ya Ukrayna olsun. Biz bura qələbə üçün gəlmişik, ona görə də güclülərlə görüşüb onlara qalib gəlməyə hazırıq”.

## Favoritlərin qarşılaşması nə vəd edir?






Bu oyundan dərhal sonra Almaniyada – “Arena Münhen”də Avro – 2020-nin yarımfinalına ikinci vəsiqə uğrunda Belçika və İtaliya milli yığma komandaları arasında matç start götürəcək.

İlk gündən çempionatın favoritləri sırasında olan İtaliya qrup mərhələsində ilk oyunlardan bütün azarkeşlərinin qəlbini fəth etməyi bacardı. Lakin Avstriya ilə oyun göylə gedən “Skuadra Adzurra”nın azarkeşlərini yerə endirdi. İndi heç də hər şey birmənalı olaraq İtaliya millisinin tərəfində deyil. Həm də İtaliya sıradan bir komanda ilə deyil, Belçika millisi ilə qarşılaşır.

Belçika Avropa çempionu Portuqaliyanı öz titulunu müdafiə etmək şansından məhrum edən Torqan Azarın bir qolu ilə 4/1 finala vəsiqəni təmin etdi. Doğrudur, bu qələbə belçikalılara çox baha başa gəldi: Eden Azar və Kevin de Brüyne zədə səbəbindən vaxtından əvvəl meydanı tərk etdilər. Lakin bütün turnir boyu 4 oyunda 4 qələbə, 3 oyunda qapılarından bir top belə buraxmamaq “qırmızı şeytanlar”ın əzmkarlığını daha da artırır.

İlkin məlumatlara görə, Kevin de Brüyne və Eden Azar belçikalıların heyətində matça çıxmayacaqlar. Eden Azar elə də böyük itki sayılmasa da, “Mançester Siti”nin kürən saçlı yarımmüdafiəçisinin oynamaması “qırmızı şeytanlar”ın vəziyyətini bir qədər çətinləşdirəcək.

Əslində İtaliya da bu oyuna böyük nailiyyətlərlə – 4 qələbə və qapıdan bir top buraxmaqla çatıb. “Skuadra Adzurra” özünün məğlubiyyətsizlik seriyasını 31 matça çatdırıb. Lakin 8/1 final matçında Avstriya ilə qarşılaşma Mançinin komandasının da problemləri olduğunu və mütləq favorit olmadığını nümayiş etdirdi. Ona görə azarkeşləri sabah Avro – 2020-nin iki nəhəng və hələ ki, məğlubedilməz komandasının amansız mübarizəsi gözləyir. Çünki yarımfinala vəsiqəni onlardan biri qazanacaq, o da ən güclü və psixoloji cəhətdən daha hazırlıqlı komanda ola bilər. De Brüynenin meydana çıxmaması Roberto Martinesin yetirmələrinin daha effektiv hücumlarının təşkilinə imkan verməyəcək. Çox yəqin ki, matç ilk dəqiqələrdən çox qapalı keçəcək.

Baş məşqçi Roberto Martines jurnalistlərə müsahibələrində rəqiblərini belə qiymətləndirir: “İtaliya turnirin yaxşı komandasıdır. Roberto Mançininin işi necə güclü milli komanda yaratmaq üçün bir nümunədir. Bu, iki əla komandanın əla matçı olacaq”.

Martines daha sonra deyib: “Əminəm ki, İtaliya ilk saniyələrdən hücuma atılacaq. Onlar çox çəld və mütəşəkkil oynayırlar. Komandada hər bir oyunçu öz rolunu bilir”.

Portuqaliya ilə oyunun qəhrəmanı Torqan Azar da İtaliya millisi haqqında bir qədər ehtiyatlı danışıb: “İtaliya bu Avroda bizim üçün ən çətin komandadır. İtalyanlar bu dəqiqə hər şeyə hazırdırlar və onların uğurlu seriyasına son vermək bizim üçün çox xoş olardı. Yeri gəlmişkən, onların oyun üslubu portuqaliyalıların oyun üslubundan fərqli olaraq bizə daha yaxındır. Onlar daha çox hücum edəcək və biz rəqib meydanında daha çox boş sahələr əldə edəcəyik. Lakin, bu bizə heç də asan olmayacaq”, – deyə Torqan fikrini tamamlayıb.

Beləliklə, hər iki yığma komanda turnirdə qələbəyə iddialıdır. Ancaq üstünlük müəyyən qədər, əfsanəvi Cüzeppe Berqominin sözlərinə görə, hazırda tarixdə ən güclü komanda olan İtaliya millisinin tərəfindədir. Burada bir həqiqət var ki, belçikalılar rəqiblərin ciddi müqaviməti ilə qarşılaşanda onlara geniş imkanlar verirdilər.

**Statistikaya gəldikdə isə vəziyyət belədir:**

**– komandalar öz aralarında 22 matçda qarşılaşıblar, İtaliya 14 qələbə qazanıb, 4 dəfə məğlub olub, 4 dəfə heç-heçə oynayıb;**

**– Rəsmi oyunlarda da üstünlük italyanların tərəfindədir, 3 qələbə, 1 məğlubiyyət, 2 heç-heçə;**

**– Avropa çempionatlarında rəqiblər 3 dəfə qarşılaşıblar, İtaliya yenə üstün olub, 2 qələbə, 1 heç-heçə;**

**– İtaliya ilə son 3 oyunda Belçika fərqlənə bilməyib;**

**– Avro – 2016-da İtaliya qrup mərhələsində Belçikaya 2 – 0 qalib gəlib;**

**İlqar RÜSTƏMOV,**
**“Xalq qəzeti”**